# Gürcüstan ilə Azərbaycan arasında əməkdaşlığın perspektivləri müzakirə olunub

Gürcüstanın Baş naziri İrakli Qaribaşvili Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarov ilə görüşüb. Bu barədə AZƏRTAC-a Gürcüstan Hökumət Administrasiyasının Mətbuat xidmətindən məlumat verilib. Bildirilib ki, görüşdə Gürcüstan və Azərbaycan arasında mövcud strateji əlaqələr və əməkdaşlığın perspektivləri müzakirə olunub. Söhbət zamanı Gürcüstan və Azərbaycan arasında iqtisadi əməkdaşlıq məsələlərinə toxunulub. Qeyd edək ki, bundan əvvəl M.Cabbarov gürcü həmkarı Levan Davitaşvili ilə görüşüb.

* * *

Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarov Gürcüstana səfəri çərçivəsində bu ölkənin Baş nazirinin müavini, iqtisadiyyat və davamlı inkişaf naziri Levan Davitaşvili ilə görüşüb. Nazirlikdən AZƏRTAC-a bildirilib ki, iqtisadiyyat naziri Gürcüstanla iqtisadi əlaqələrin müsbət dinamikasını qeyd edib, qarşılıqlı faydalı imkanların dəyərləndirilməsi və reallaşdırılması üçün ticarət, investisiya, nəqliyyat-tranzit, enerji və digər sahələrdə potensialı diqqətə çatdırıb. Qeyd olunub ki, Gürcüstan Azərbaycanın təşəbbüsü ilə reallaşdırılan enerji və nəqliyyat layihələrində fəal iştirak etməklə regional əməkdaşlığa töhfə verir. Bunun nəticəsidir ki, dövlətlərimiz bu gün Avropanın enerji təhlükəsizliyi üçün önəmli rol oynayan ölkələrdəndir. Görüşdə Azərbaycan və Gürcüstanın yüksək tranzit potensialından daha yaxşı istifadə etmək məqsədi ilə beynəlxalq nəqliyyat dəhlizlərinin inkişafı üzrə əməkdaşlığın daha da möhkəmləndirilməsi imkanları vurğulanıb, bu xüsusda Orta dəhlizin əhəmiyyəti qeyd olunub.

Levan Davitaşvili hər iki ölkənin iştirakı ilə həyata keçirilən layihələrin regional inkişafa xidmət etdiyini vurğulayaraq, tərəfdaşlıq çərçivəsinin genişləndirilməsi üçün potensialı qeyd edib. Tərəflər iqtisadi əlaqələrin şaxələndirilməsinə xidmət edən qarşılıqlı maraq doğuran məsələləri nəzərdən keçiriblər.

Azərbaycan.- 2023.- 30 sentyabr.- S.4.